Hörmətli Rövşən Nəcəf,

Sizi Bakı şəhərindən keçmiş əməkdaşınız Kamran Muradov narahat edir. Xatirinizdədirsə, sizə 19.05.2025, 22.05.2025 və 23.05.2025 -ci il tarixində müraciət etmişdim. Təəsüf ki, müraciətimə baxılma prosesi o qədər səmərəsiz oldu ki, sadəcə işdən çıxmaqla qalmadım, yumşaq formalı və kəskin formalı basqı, sosial təcridolunma və təhdidlərlə üz-üzə gəldim. İcazənizlə Azərbaycan Respublikası Konstitusiyasından iki maddəni qeyd etmək istədim. 1. Azərbaycan Dövlətinin yeganə mənbəyi Azərbaycan xalqıdır. 2. Dövlətin Ali Məqsədi -I. İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının*, Azərbaycan Respublikasının vətəndaşlarına layiqli həyat səviyyəsinin* təmin edilməsi dövlətin ali məqsədidir.[3]

II. Bu Konstitusiyada sadalanan insan və vətəndaş hüquqları və azadlıqları Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun tətbiq edilir.

Mən məhz bu iki maddə çərçivəsində güvənc içərisində sizə yazdım. Mənim məktubum şirkət rəhbərliyinə bildirilməklə qalmadı, mənə yümşaq və kəskinləşmiş təhdidlə izahat yazdırıldı. Halbuki mən yazmışdım ki, izahat yazsam bilin ki, bunu mən könüllü yazmamışam.

Bütün sübutlar e-mail -də açıq-aşkar şəkildə mövcuddur. Daxili araşdırma ilə hətta silinmiş maillərə belə baxa bilərsiniz. Mən vəzifəyə Jr.ERP(LİMS) Support Engineer olaraq başlamışdım. İşə başladığımın 10-cu günündə məndən bilet(ticket) həll edilməyim istənildi. Lüzumi icazələr təhkim edildiyim iş fəaliyyəti üzrə verilməmişdi. Sonradan çox məhdud bir icazəylə mənə kompleks çərçivəli, enterprise bir proqram üzrə texniki həlli həyata keçirməyim tələb edildi və işdən çıxarılmaqla dəfələrlə təhdid edildim. Mənim məsul olduğum iş üzrə fəaliyyətdə olan proqramın 6 ay geriyə doğru yoxlanılmasını xahiş edirəm. Loglara baxılsın. Görək ki, mən vəzifəm üzrə səlahiyyətli olduğum proqrama girmişəmmi QAS və ya Production üzrə? – rəhbərliyin, birbaşa olaraq Ədalət Müslümovun əmri ilə və öz vəzifəmdən təcrid edildim.

Mən sizə şikayət ünvanladıqdan sonra mənə bildirirlər ki, biz səni POC server üzrə təhkim etmişdik. MS SQL üzrə araşdırma etməyin üçün biz bunu etdik – deyə bildirdilər. Burda iki sual yaranırdı. 1. Niyə bunu mənə bildirmirdiniz? 2. Niyə tamamilə məni vəzifəmdən kənarlaşdırdınız? – bu suallara cavabında Ədalət Müslümov bildirir ki, mən indi hal-hazırda həmin vəzifəni icra etməyən Sistem üzrə komanda rəhbərinə dedim ki, Kamran Muradovu tələşləndirmaq, həyəcana salmaq lazımdır. Ona görə sənə bildirmədik. İkinci sualımın cavabında isə bildirir ki,sən mənim istədiyim yerlərə baxmamışdın. İndi sualımı sizə ünvanlayıram ki, hansı işçi işə gələn gündən daxili sistem izah edilmədən birbaşa sistemə buraxılır? Və ya keçmiş bu iş üzrə fəaliyyət göstərən əməkdaş və ya onun əvəzedicisi raport olaraq məlumatları yeni əməkdaşla paylaşmadan sadəcə pdf-lər təqdim edilərək və bunlar qarşılıqlı şəkildə komanda daxilində şərh edilmədən, integrasiyaları edilmiş SAP sistemi və Active Directory üzrə izahatları həyata keçirilmədən məhdud icazəylə sistemə aşına olmadan dəqiq məlumat ala bilər ki?

Sizdən xahiş edirəm 6 ay geriyə doğru sistem üzrə baxış keçirin və rəhbərimin əmri ilə niyə əmək haqqı aldığım iş üzrə fəaliyyətdən kənarlaşdırdığımı sual edin. Sizə Roman Məmmədovun mənə etdiyi təzyiqləri bildirmişdim. Eyni təzyiqlər daha kəskin formada Ədalət Müslümov tərəfindən mənə qarşı edildi. Hətta əməkdaşına bildirir ki, bunu atın server otağına biraz döyün ağlı başına gəlsin. Mənim şikayətlərimi, iradlarımı və narazılıqlarımı baş direktor Fuad Əhmədov nəzərə almadı, prosesi daxili audit komandasına həvalə etmədi. Mənimlə danışmadı, fikirlərimi öyrənmədi. İş fəaliyyətim ərzində hörmətli Fuad Əhmədocun hansısa əməkdaşın dərdini dinlədiyinə şahid olmadım. 1 il boyunca səhhətimə ciddi zərər vuruldu. Psixoloji işkəncələrə, təhqirlərə, mobinglərə məruz qaldım. Cənab Prezidentimiz bildirmişdi ki, xalqın hər bir fərdi istənilən dövlət qurumuna və Prezident Aparatına şikayət və iradlarını bildirə bilər. Bu məktublar onların birbaşa rəhbərlərinə göndərilməyəcək və ədalətli araşdırma ediləcək, lakin, siz məktubu rəhbərliyimə göndərdiniz və araşdırma barədə göstəriş vermədiniz. Bütün bu proseslərdən sonra 3 aya qədər bu təzyiqlər daha şiddətli halda davam etdi. Sonra məni yenə səlahiyyətimə aid olmayan Quality Management System adlı layihələyə cəlb etdilər. Mən əməkhaqqımın haqqını vermək üçün bunu etmək məcbiriyyətində qaldım. Bu mənim işim deyil deyəndə rəhbər dedi ki, sən support işində hələ olmayacaq, peşəkar bacarıqlarını inkişaf etdirmək üçün bu işi sənə verirəm və vəzifə təlimatlarına bu daxil ediləcək. Mənə exceldə şikayət analizi, anket analizi kimi işlər və web tətbiq hazırlamaq işi həvalə edildi. Bunların heç biri vəzifə təlimatlarımda qeyd edilməmişdi.

Mən Fuad Əhmədova və İnsan Resursları direktoru Səbinə Feyzovaya qeyd etmişdim yazılı olaraq ki, məndən 3 ildir həll edilməyən ticketləri 3 aya həll etməyim istənilir. Yenə Ədalət Müslümovun qeydinə əsasən bildirirəm Fuad Əhmədov müəllimlə danışığında ona bildirib ki, sənin açıq ticketin varsa get bağla. Heç bir araşdırma edilmədən və hesabatlarda bütün ticket hesabatları bağlanmış qeyd edilərək bu edilib. Yenə Ədalət Müslümovun qeydinə görə, Fuad Əhmədova mən bütün bu şikayətləri rəsmi yazılı etmədən işdən öz xahişimlə çıxış ərizəmi verəndə gedib xahiş edib ki, Kamranın anası xəstədir, atasız uşaqdır gəlin çıxartmayaq Fuad Əhmədov niyə çıxır, səbəb nədir, gəlsin görüşək demək əvəzinə sənin işinə yaramırsa çıxart getsin -deyib.Kiçik bir qeyd daha edim ki, bu xahişi etməsinin səbəbi də mənə olan mərhəmətindən deyil, məhz kadr tapmaqda bu sahə üzrə çətinlik çəkməsindən qaynaqlanırdı. Yenə Ədalət Müslümov bəyənatında qeyd edir ki, mən nə prezident aparatı sayıram nə başqasını. Mənim heç kim vecimə deyil. Ən mühümü isə odur ki, yenə Ədalət Müslümov məni iki vəzifə aşağı vəzifəyə çəkmək və Jr.Help Desk Techinician etmək istədi. Yenə loglara, teams hesabatlarıma və ticket sistemi hesabatlarına 6 ay geriyə doğru baxaraq şahid olacaqsınız ki, hesabatlarım başqa şöbənin səlahiyyətlərinin çərçivəsindədir çünki rəhbərimi dəyişdi Ədalət Müslümov amma rəsmi qaydada şöbəmi dəyişmədən bunu etdi çünki mənimlə razılaşdırmalı idi. Əgər mənim bir qüsurum var idisə rəsmi xəbərdarlıq, töhmət və digər intizam tədbirləri ilə cəzalandıra bilərdi. O isə təhdid yolunu seçməkdə davam etdi çünki mənim haqlı tərəf olduğumu bilirdi. İnsan Resursları öz fəaliyyəti üzrə heç bir alət və resurslardan istifadə etmirdi. Şikayət edən şəxsi izləmək, şikayətin nəticəsi sonrası prosesləri izləmək, müxtəlif sorğuları həyata keçirmək insan resurslarının vəzifəsi idi lakin bu prosesdə icra edilmədi. İndi mənə həm maddi, həm də səhhətim etibarı ilə ciddi bir zərər dəyib və bu zərər təzmin edilməyib. Mənə bütün bu haqsızlıqlara rəğmən heç bir təzminat ödənilmədən müqaviləm yenilənməməklə işimdən uzaqlaşdırıldım. Çünki yerimə yeni bir

kadr tapılmışdı. İndi vakansiyalara baxsanız görəcəksiniz ki bu barədə elan yoxdur və yerimdə bir nəfər də işləyir. Ən qəribəsi isə odur ki, mən şikayət analizləri etdiyim dövrdə gördüm ki, hər ay şikayətlər müxtəlif şöbələrdən gəlirdi, lakin, şikayətlər həll edilməməklə bərabər süni sürətdə ticketlər bağalnılır, hesabatlarda 100% və daha yuxarı nəticələr göstərilir və bu hesabatlar üst rəhbərliklə paylaşılır. Təbii ki, bunun nəticəsində hər il yüksək məbləğlərdə mükafatlar alınır. Onu da qeyd edim ki, hazırda ticketlər yoxlanılsa proqram üzrə görüləcək ki, laboratoriyanın qeyd etdiyi heç bir ticketin real həlli proqramda yoxdur. Yəni sadəcə server restart etməklə müvəqqəti sürətdə ticket bağlanılır və buna heç kim səsini çıxartmır. Ciddiyətlə araşdırma internal audit tərəfindən edilsə idi bu faktlar bir-bir üzə çıxacaqdı. Bunlar dəqiqlə bildiyim və öz dönəmimdə gözümlə şahid olduğum faktlardır və işdən ayrıldıqdan sonraki mərhələyə mən cavabdeh deyiləm deyə bildirirəm ki, yanvar ayının 5-dən geriyə doğru bütün ticket və loglar yoxlanılsın zəhmət olmasa. Bu adamlar hərbidən gəliblər yəni hərbi təfəkkür üzrə yetişiblər lakin ən böyük yalnışları qarşısındakini əsgər kimi görmələri, sivil həyata uyğunlaşa bilməmələridirş Ədalət Müslümov bəyanında bildirir ki, mən 2 -dən çox dəfə ölü zənn edilib morga atılmışam. Buradan da açıq-aşkar aydın olur ki, bu şəxsin travmaları, psixoloji əsaslı problemləri var. Tibbi sigorta sistemi üzrə sual edilsin zəhmət olmasa ki, bu şəxsin psixoloji vəziyyəti araşdırılıbmı? Və ya müalicə alıbmı? Nevroloji problemləri təyin edilibmi? Sizə bir qeyd daha edim. Məni işə götürən zaman vəzifə təlimatları elanına baxış keçirilməsini xahiş edirəm. Mənim klasifikasiyama görəmi bu iş təklif edilib? İşə götürmə prosesi nə qədər qanunvericiliyə uyğun keçirilib? Bütün bu detallar və bir məktuba sığmayacaq qədər 100-lərlə qanunsuzluq var ki, hamısı ciddi və ədalətli araşdırma ilə üzə çıxacaqdır. Socar Downstream rəhbərliyinə də mənim bu şikayətlərim və narazılıqlarım çatdırılmadı. Ədalət Müslümov bir bəyənatında da, qeyd edildi ki, biz vendor tapa bilmirik sənin iş fəaliyyətin üzrə proqram təminatı üzrə amma mənə araşdırmalarını bizimlə paylaş deyə qeyd edib, sonra mənə bildirir ki, mail ilə yox sən bunu etmə. Bütün bu prosesləri icra edən Ədalət Müslümov məni üç dəfə qəbul etmişdi. 2024 dekabr ayında birinci səfər qəbul etmişdi. Kamera qeydiyyatına bununla bağlı müraciət edə bilərsiniz. İlk görüşdə demişdi ki, səni ixtisas profilin üzrə işə qəbul edəcəm. Sonraki proseslərdə məlum oldu ki, işə qəbul müsahibəm olduqca primitiv keçirildi və sonra buna görə də məni ittiham etdi. Ədalət Müslümov yenə bəyənatında qeyd edir ki, sən bizi aldatdın, lövhədə elə bir sxema çızdın ki, biz səni profesional olaraq qəbul etdik. İndi yenə sizə sual ünvanlayıram. Bu kimin qeyri-peşəkarlığını qeyd edir ? – demək ki, istənilən əməkdaş rəhbəri aldada bilər. Yalan informasiya belə verə bilər və rəhbər buna inanacaq. Sual verib cavab almalı, müxtəlif resurs və müsahibə aləti ilə yoxlama prosesi həyata keçirməli idi. Bunların heç birini icra etmədilər. İndi bütün proseslərdə ittiham mən edilirəm. Bütün bu proseslərdə zərər görən sadəcə mənim valideynim və mən oldum. Mal-inventar proseslərində də qeyri-dəqiqliklə işlər icra olunurdu. Mənim adıma yazılmış monitor yenə bəyanlara görə Fuad Əhmədovun köməkçisi Orxan Həsənov adlı bir şəxsə verilmişdi. Monitorun istismar prosesində hər hansı zərər verilmiş olsa idi mənim adına qeydiyyatda olduğu üçün zərər çəkən mən olacaqdım. Yəni burada da qeyri-qanuni sənədləşmə prosesi var idi. Yəqin ki, monitoring olunsa bir çox bu kimi problemlərlə IT tərəfindən rastlaşılacaq. Məni yumşaq təhdid formasında təhdid etdilər ki, sənə ölkədə iş tapmağa icazə verməyəcəyik. Əgər birdə etiraz etsən, yazsan sənə bağ fəhləliyini belə çox görərik. Hər yerə yazarıq ki, bu şəxsi qəbul etməyin. Yazan şəxsdir. Ölümlə təhdid olundum. Döyülməklə təhdid olundum, şəxsiyyətim

və layəqatim alçaldıldı və təhqir edildi. Üzərimə ciddi bir basqı rejimi quruldu. Mən bilmədən arxamca işlər görüldü və vəzifəm məhdudlaşdırıldı. Bütün təhdid ünsürləri, bütün sosioloji basqılar mənə yönəldi. Hər məktubum, mesajım bilərəkdən şirkət ərazisində yayıldı. Mənə dedilər şikayət etsən belə sən haqsız vəziyyətə düşəcəksən. Çünki hər kəsi təhdid edəcəyik, sənin əlehinə izahatlar yazdıracayıq. Sənin ifadələrini əsassız edəcək şahidlər toplayacayıq. Heç kim sən tərəfdə olmayacaq çünki hər kəs işindən qorxub susacaq. Mənə söz göndərirdilər ki, biz sənlə açıq ədavət apararıq başına hər oyun gətirərik. Hər cür göz qorxutma prosesinə gedirdilər. Əgər ciddi monitoring olunsa ticketlər, hesabatlar, loglar, kameralar məni işimdən necə uzaqlaşdırdıqları məni ən az 8 ay necə işə yaramaz vəziyyətə gətirdiklərinə siz də şahid olacaqsınız ki, mən bunları sizə ilk məktubumda qeyd etmişdim. Xahiş edirəm, bu şəxslər ciddi nəzarətə götürülsün. Bir insanı bu qədər təhdid etmək olmaz. Onu da mütləq yoxlayın xahiş edirəm, mütləq mail recover yəni silinmiş mail bərpasında aşkara çıxacaq ki, Ədalət Müslümov izahatı yazıb ona göndərməyimi istədi sonra isə bu izahatı düzəldib mail ilə mənə göndərdi və dedi Fuad Əhmədova göndər. Bunun da mütləq ki, ya serverdə müəyyən müddət detalları saxlanılır ya da ki, mail bərpa ilə geri qaytarıla bilir. Bütün sübutlar məndə də var lakin mən istəyirəm ki, özləri bütün bu sübutları aşkara çıxarsınlar. Mən sonuncu dəfə qeyd edim ki, mənə sənin canın çıxsada biz deyənləri edəcəksən, sən xəyal görmə burda heç bir istəyin olmayacaq sadəcə biz nə deyirik burda o olacaq deyə Ədalət Müslümov mənə bildirdi. Eyni zamanda məni sistemdən uzaqlaşdırdılarsa da aylarla sistem düzəlmədi. Ən sonda Ədalət Müslümovla olan söhbətimizdə özü şəxsən bəyan etdi ki, Fuad Əhmədov bildirib ki, ya komandanı götür get, ya da sistemi düzəlt. Ondan sonra özü kodlar üzərində çalışıb və məlum olub ki, öz komandasında əvvəlcə çalışan bir əməkdaş səhvindən bu baş verib. Dəfələrlə bu şəxs şikayət edilib, Fuad Əhmədova məktublar yazılıb, hər komandadan ayrılan, işdən çıxan əməkdaş Socar Polymerə şikayət ünvanlayıb hətta məhkəməyə verib. Hər səfərində Fuad Əhmədov qoruyub, səhvlərini görməzdən gəlib. Yenə bunları mənə danışıblar. Bu səbəbdən bu məsələləri bu qədər təfərrüatlı şəkildə bilirəm. Ədalət Müslümov məni otağa çağırıb hər səfərində problemlərimi həll etmək yerinə mənə şirkət içində mən nə PR komandasını sayıram, nə HR komandasını hamısı mənimlə düşmənçilik edir deməsi də komandalar arası çəkişmənin qurbanı olduğumun əyani nümunəsidir. Yenə Ədalət Müslümov bəyan edir ki, Fuad Əhmədovun yanına HR rəhbəri, PR rəhbəri gedir rahat-rahat danışır və mənim haqqımda mənfi məlumatlar verirlər. Yenə mənə Ədalət Müslümov bildirir ki, mən hər şeyi təkbaşıma edirəm sən də tək et. Dəfələrlə bildirdim ki, siz direktor vəzifəsi icra edirsiniz və hər yerə səlahiyyətiniz var və giriş edə bilir və araşdırma edə bilirsiniz lakin mənə bu imkanları verməmisiniz. Proqram üzeə səlahiyyətli şəxslərin reportları qarşımda yoxdu. Mən nəyə əsaslanıb sistemi düzəldim? Bu sistem o qədər mürəkkəbdir ki, sadəcə bir dəstək mühəndisinin və ya developer-ın işi deyil. Bu komanda işidir və bu işin sistem tərəfi, şəbəkə tərəfi var. Məni heç bir işçinin yanına təhkim etməməklə bərabər, öz komandam dediyi komandasına söz deməyə belə ehtiyat edərkən, mənə hər cür sıxışdırıcı və təzyiq edici hərəkətlərə yol verirdi.

Xahiş edirəm ezamiyyətə göndərilən əməkdaşların, xərclərinin nə qədəri izafi xərclərə yazılır, nə qədəri mütəfərrik olaraq qeyd edilir ? – bu da yoxlanılsın. Yəni bir ezama gedən şəxsin ona ödənilən vəsaitdən qənaət kimi göstərilən əslində 2% miqdarda groos hesaba ödənilməli

olan vəsait ödənilibmi deyə sual edin zəhmət olmasa. Bunlarla bağlı hər hansı dəqiq və yaxud konkret bir sübut və ya məlumatım yoxdur. Bu sualları verməyimin səbəbi sadəcə araşdırmaya kömək xarakterlidir. Onu da qeyd etməliyəm ki, bir çox faktlar var ki, hansı ki bunlar şəxsimlə əlaqəli məsələlər olmadığı üçün qeyd edə bilmirəm. Lakin bir çox danışıqlarına şahid olduğum üçün yəni öz yanımda danışdığı üçün faktiki olaraq hər şeyi edə biləcəyini və sadəcə maddiyatla hər şeydən özünü xilas edə biləcəyini düşünən bir insandan bəhs edirik. Bu şəxs qorxu və manipulyasiya alətlərindən o qədər ustalıqla istifadə edə bilir ki, mənə deyirdi ki, mənim hər yerdə gücüm və dostlarım var. Sənin lokasiyandan tut yeyib-içmə saatlarına, istirahət zamanlarına və məkanlarına qədər hər şeyə hakim ola və sənə istədyimi elətdirə bilərəm. Bu bəyanları göz qorxutma və təhdid ünsürü də ola bilər. Bu şəxs və fəaliyyətləri barədə bildiklərimi açıqlamayım deyə bütün təhdid ünsürlərini yumşaq və ya sərt keçişlərlə istifadə edə bilir. Ən böyük üstünlüyü isə səsini qaldırmağı və insanlara ciddi hədə-qorxu gəlməklə onları sindirmək və öz qaydalarından kənara çıxmamalarını təmin etmək üzərində iş siyasətini qurmuşdur. İfadəmə görə üzr istəyirəm lakin yenə Ədalət Müslümovlar danışığımda özü bildirir ki, sən bizim SAP sistemi barədə xətadan yazanda Fuad Əhmədov məni yanına çağırdı dedi ki, sistemdə nə problem varsa düzəlt. Məndə dedim ki, Fuad o uşaqdı bilmir nə deyir sistemə giriş edə bilməsinindəsəbəbi cash-ində var girir amma məzuniyyət götürə bilmir çünki yeniləmə etməlidir və.s-deyib. Bunun nə qədər əssassızx olduğunu da sistemi test edəndə görəcəksiniz çünki dəfələrlə mən bildirəndən sonra da texniki düzəlişlərə gedildi sistemdə. Yenə Ədalət Müslümov bildirir ki, mən Fuada deyəndə (təkrar ifadəmə görə üzr istəyirəm) dönüb mal-mal üzümə baxdı.Yəni uşaqdırsa çıxart getsin mənasında bunu etdi -deyə Ədalət Müslümov mənə bildirdi. Sonra yenə özü bildirir ki, Fuad Əhmədov bildirib ki, mən sənə güvənirəm. Bu şəxs yenə bildirdiyim kimi mənim Prezident Aparatı vecime belə deyil deyən Ədalət Müslümovdur ki, yenə bildirdi ki yəni bu şirkətin qurucusu mənəm, şirkətdə nə hardadır, mə yoxdur hamısını mən vilirəm Fuad Əhmədovda mənə möhtacdır yoxsa güvənirəm deməyi güvənmək deyil əli məhkumdur mənə deyə bildirdi.Əlavə olaraq bildirdi ki, mən onsuz güclüyəm sənlə prinsipə durası deyiləm nə yaşın, nə təcrübən mənimlə mübarizəyə imkan verər. Mənimlə prinsip aparma onsuz bunu edə də bilmərsən.Kiməsə nəsə desən belə heç kim sənə inanma onsuz mənim yanımdakiların hamısı mənim tərəfimdə olacaq yoxsa onları iti qovan kimi qovaram. Hamısı qorxusundan mən deyəni edəcəklər -deyə bildirdi.

Hörmətli Rövşən müəllim bu yazılarımda məqsədim odur ki. Bu qədər konflikt və çəkişmələr arasında qurban seçilən mən oldum.

Cənab Prezidentimizin sözləri ilə bu məktubu yekunlaşdırmaq istərdim. Cənab Prezidentimiz son müsahibəsində belə bir qeyd etdi ki, bizə istedadlı, namuslu, savadlı kadrlar lazımdır və mən verdiyim qərarların bir çoxunda ictimaiyyətə əsaslanıram. Mən bu sözlərdən bəhrələnərək sizə təkrar müraciət edirəm. Sizdən xahiş edirəm ki, haqq-ədalətin bərpasına köməklik edə və bir zərər çəkimiş olaraq mənə vurulan mənəvi zərərin təziminin kömək edəsiniz.

Qeyd:

Buu da qeyd edim ki, Mənim artıq Socar Şirkətinə etimadım olmadığı üçün bu sənədin bir kopyasını Ombudsman Təşkilatına,bir kopyasını Dövlət Əmək Müfəttişliyinə, bir kopyasını İqtisadi İnkişaf Naziri və SOCAR-ın Müşahidə Şurasının sədri Mikayıl Cabbarova, Ailə, qadın və uşaq məsələləri üzrə Dövlət Komitəsinə, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə, hörmətl Viste-Prezident və Birinci Xanım Mehriban Əliyevaya, Vitse-Prezident katibliyi sədri hörmətli Altay Həsənova, Azərbaycan Respublikasının Baş Prokuroru Kamran Əliyevə və  Azərbaycan Respublikası Məhkəmələrinə ünvanlayacam. Yeganə məqsədim bir ildir mənim gördüyüm əziyyətlərin bir qarşılığının olmasıdır.

Hörmətlə,